**20 Yanvar faciəsinin on birinci ildönümü haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il 20 yanvar hadisələrindən on bir il keçir.

1987-ci ildən başlayaraq ortaya atılan qondarma Dağlıq Qarabağ problemi XX əsrdə Azərbaycan xalqına qarşı düşünülmüş şəkildə həyata keçirilən qərəzli siyasətin növbəti bir mərhələsi idi. Ermənistanın respublikamıza ərazi iddialarının SSRİ rəhbərliyi tərəfindən açıq-aşkar dəstəklənməsi, Azərbaycan rəhbərlərinin isə bu məsələdə xəyanətkar mövqe tutması nəticəsində Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarılması yolunda göstərilən cəhdlərin qarşısını almaq üçün xalqın ayağa qalxmaqdan başqa bir yolu qalmamışdı.

Totalitar sovet rejimi respublikada haqq-ədalətin bərqərar edilməsi uğrunda səsini qaldıran Azərbaycan xalqının inam və idarəsini qırmaq, milli mənliyini alçatlmaq məqsədilə 1990-cı il yanvarın 2-də tarixdə misli görünməmiş cinayətə əl atdı. Sovet Ordusu hissələrinin respublikamıza yeridilməsi ilə həyata keçirilmiş hərbi təcavüz nəticəsində dinc əhaliyə divan tutuldu, Azərbaycan xalqına qarşı kütləvi terror aktı baş verdi. Yüzlərlə günahsız insan yaralandı və qətlə yetirildi.

Xalqımız 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, ən ağır sınaqlara sinə gəlmək əzmini bütün dünyaya nümayiş etdirdi. 1990-cı ilin Qanlı Yanvarında Azərbaycanın şəhidlik zirvəsinə ucalmış Vətən övladları özlərinin fədakarlığı ilə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar.

Azərbaycanın azadlığı uğrunda şəhid olmuş vətəndaşlarımızın əziz xatirəsini dərin hüznlə yad edərək, xalqımıza qarşı törədilmiş qanlı faciənin 11-ci ildönümü münasibətilə **qərara alıram:**

20 Yanvar faciəsinin on birinci ildönümü ilə bağlı tədbirlərin hazırlanması və keçirilməsi üçün aşağıdakı tərkibdə Dövlət Komissiyası yaradılsın:

Komissiyanın sədri:

Ramiz **Mehdiyev** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri

Komissiyanın üzvləri:

| | |
|---|---|
| Əli **Həsənov** | - Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsinin sədri |
| Vilayət **Quliyev** | - Azərbaycan Respublikasının xarici işlər naziri |
| Səfər **Əbiyev** | - Azərbaycan Respublikasının müdafiə naziri |
| Ramil **Usubov** | - Azərbaycan Respublikasının daxili işlər naziri |
| Fikrət **Məmmədov** | - Azərbaycan Respublikasının ədliyyə naziri |
| Zakir **Qaralov** | - Azərbaycan Respublikasının baş prokuroru |
| Əli **Nağıyev** | - Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri |
| Misir **Mərdanov** | - Azərbaycan Respublikasının təhsil naziri |
| Polad **Bülbüloğlu** | - Azərbaycan Respublikasının mədəniyyət naziri |
| Əbülfəs **Qarayev** | - Azərbaycan Respublikasının gənclər və idman naziri |
| Nizami **Xudiyev** | - Azərbaycan Respublikası Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri |
| Allahşükür **Paşazadə** | - Qafqaz Müsəlmanları İdarəsinin sədri |
| Zəhra **Quliyeva** | - Azərbaycan Respublikası Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri |
| Məhəmməd **Abbasov** | - Bakı şəhər İcra Hakimiyyəti başçısının səlahiyyətlərini icra edən |

Oqtay **Mirqasımov** - "Azərkinovideo" İstehsalat Birliyinin baş direktoru

Səttar **Mehbalıyev** - Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri

Yusif **Hümbətov** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri

Əli **Həsənov** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının İctimai-siyasi şöbəsinin müdiri

Fatma **Abdullazadə** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Humanitar siyasət şöbəsinin müdiri

Aslan **Aslanov** - Azərbaycan Dövlət Teleqraf Agentliyi baş direktorunun birinci müavini

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 5 yanvar 2001-ci il
№ 602